


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

13 iyul 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 26 (3640)

# ALTI AYIN SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏ

İyulun 11-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib.

Müşavirədə çıxış edən dövlətimizin başçısı cari ilin 1-ci yarımilində ölkəmizin dayanıqlı inkişafının təmin edilməsinin, qeyri-neft sektorunun inkişafının, Qarabağın və Şərqi Zəngəzurun bərpasının, iqtisadi və sosial sahələrdə islahatların aparılmasının qarşıya qoyulan əsas istiqamətlər kimi müəyyən olduğunu bildirib. Qeyd edib ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, qeyri-neft sektoru 3 faizdən çox və qeyri-neft sektorunun sənaye sahəsi 6,5 faiz artıb. Maliyyə vəziyyətimizin böyük dərəcədə yaxşılaşdığını, dövlət büdcəmizin 36 milyard manatdan çox olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev ilk növbədə azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkanın veriləcəyini, hərbi gücümüzün daha da artırılacağını vurğulayıb.

Ölkəmizin rəhbəri xarici dövlət borcunun idarə edilməsi istiqamətində görülən işlərə də toxunaraq bu sahədə böyük irəliləyişlərin əldə olduğunu, ümumi daxili məhsulun 60 milyard manatdan çox təşkil etdiyini bildirib.

Böyük Qayıdış proqramından söz açan dövlətimizin başçısı proqramın birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulmasının nəzərdə tutulduğunu, 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında şəxsən iştirak etdiyini deyib.



Prezident İlham Əliyev dünyada beynəlxalq hüquqa əməl edilmədiyini, məhz beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürən böyük dövlətlər tərəfindən pozulduğunu da vurğulayıb. Qeyd edib ki, bu səbəbdən də, biz, ilk növbədə, özümüzü, müstəqilliyimizi, seçimimizi, həyat tərzimizi, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq, həm döyüş qabiliyyətini, həm silah və texnika ilə təchizatımızı gücləndirməliyik.

Dövlətimizin başçısı müşavirədə, həmçinin digər sahələrdə əldə olunan nailiyyətlərdən, qarşıda duran vəzifələrdən, eləcə də müəyyən olunmuş hədəflərin həyata keçirilməsi istiqamətində görüləcək işlərdən danışıb.

Çıxışında Naxçıvan Muxtar Respublikasının gələcək sosial-iqtisadi inkişafına toxunan ölkəmizin rəhbəri bununla bağlı dövlət proqramının qəbul edildiyini, o cümlədən Naxçıvanın, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində mühüm addımların atıldığını qeyd edib.

Ölkəmizin böyük hissəsinin artıq rəsmən "yaşıl enerji" zonası elan edildiyini vurğulayan dövlətimizin başçısı bunun fonunda Gədəbəy rayonunda baş vermiş hadisəyə də münasibət bildirib: "Azərbaycanda xaos, özbaşınalıq, təxribat xarakterli addımlar 1993-cü ildə başa çatıb. Əgər kimsə unudubsa, biz xatırlada bilərik. Ona görə vətəndaşlar da həm mədəniyyət göstərməlidirlər, necə deyərlər, mərifət göstərməlidirlər, qanuna tabe olmalıdırlar, polisə daş atmamalıdırlar, polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil. Bu, birincisi. İkincisi, bu, cinayətdir. Əgər Azərbaycan polisi dözümlülük göstərirsə, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil. Mən hər kəsə deyirəm, burada biz kiminsə nazı ilə oynayası deyilik, necə lazımdır, əgər lazım bilsək, kimi lazımdır, elə cəzalandırarıq ki, peşman olar".

Prezident İlham Əliyev "Abşeron" qaz-kondensat yatağından çıxarılan ilkin qazın əhəmiyyətindən də söz açıb: "Bu, doğrudan da çox əhəmiyyətli hadisədir. Çünki bu günə qədər bizim ixracla bağlı əsas qaz resursumuz "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün bizim artıq iki böyük qaz-kondensat yatağımız var.

Bir neçə gün bundan əvvəl mənə məlumat verildi ki, ilkin qaz hasil edildi, debitlər də çox yaxşıdır. Hətta bir quyudan "Şahdəniz" qaz yatağından da daha çox qaz və kondensat hasil edilir".

Müşavirə müzakirələrlə davam edib.




***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il iyul ayının 19-da Mingəçevir Şəhər Polis Şöbəsinin inzibati binasında Mingəçevir, Yevlax, Ağdaş, Ucar, Şuşa və Tərtər şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 18.07.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in https://mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 10-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul edib.***

***Dövlət başçımızın 10 iyul 2023-cü il tarixli sərəncamları ilə Ceyhun Əkbər oğlu Həsənov Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi vəzifəsindən azad edilib, həmin vəzifəyə Mirsaleh Miradil oğlu Seyidov təyin olunub.***

***Ölkəmizin rəhbəri iyulun 10-da "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in icrası ilə bağlı səlahiyyətli orqanların (qurumların) müəyyən edilməsi barədə sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 10-da Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə keçirilən növbədənkənar seçkilərdə qazandığı parlaq qələbə münasibətilə Prezident zati-aliləri cənab Şavkat Mirziyoyevə təbrik məktubu ünvanlayıb.***

***Dövlətimizin başçısı iyulun 11-də Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindneri qəbul edib.***

***Ölkəmizin rəhbəri iyulun 12-də Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib.***

***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 12-də Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI



İyulun 10-da Daxili İşlər Nazirliyində 2023-cü ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısının da növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə təhlükəsizliyin etibarlı təmin edildiyini vurğulayıb.

Nazir məmnunluqla qeyd edib ki, daxili işlər orqanlarının fəaliyyətini həmişə yüksək qiymətləndirən cənab Prezidentin sərəncamları ilə ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşıya qoyulmuş tapşırıqların icrasında fərqləndiklərinə görə 38 əməkdaş və hərbi qulluqçu dövlət mükafatlarına layiq görülüb, habelə rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verilib.

*Ardı 2-ci səhifədə.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI

*Əvvəli 1-ci səhifədə.*

İlin ikinci yarısında da qarşıda mühüm vəzifələrin durduğunu qeyd edən general-polkovnik V.Eyvazov onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini bildirib.

Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini polis general-leytenantı Seyfulla Əzimov ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 19.533 cinayət qeydə alındığı və bu cinayətlərin 95,5 faizinin (18.661-i) daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olduğunu bildirib. Eləcə də 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 15,4, qəsdən sağlamlığa ağır zərər vurmaların 12,3, əzab vermələrin 22,2, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 21,7, adam oğurluqları və quldurluqların hər birinin 25, soyğunçuluqların 8,4, xuliqanlıqların 16,6, oğurluqların 1,7, onlardan mənzillərdən edilənlər 21,7, ailə münaqişəsi zəminində baş vermiş cinayətlərin 1,4, ictimai yerlərdə qeydə alınmış cinayətlərin 13,6 faiz azaldığını qeyd edib.

Kriminal qəsdlərin qurbanlarının pozulmuş hüquqlarının bərpası istiqamətində həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə ümumi cinayətlərin 90 faizinin, o cümlədən "isti izlər"lə 1605 cinayətin açıldığını, 4587 hüquqazidd əməlin qarşısının alındığını, axtarışda olan 3291 şəxsin tutulduğunu, dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın 79,4 faizinin ödətdirildiyini vurğulayıb.





Məruzəçi mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 395 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 275 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 946 kiloqram çox – 2 ton 921 kiloqram narkotik vasitə çıxarıldığını, qanunsuz kultivasiya olunan 143 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edildiyini nəzərə çatdırıb.

Həmçinin vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrası çərçivəsində mediada qabaqcadan məlumat verilməklə 2318 vətəndaşın qəbulunun həyata keçirildiyini, qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığını bildirib.

Məruzəətrafı çıxışlarda Nazirliyin bir sıra baş idarələrinin, Polis Akademiyasının və ərazi polis orqanlarının rəhbərləri görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini vurğulayaraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib.

Nazir cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların və medianın fəal iştirakına da toxunaraq onlara, habelə respublikada ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması, istintaqı, keçmiş illərdən bağlı qalmış 258 cinayətin açılmasında birgə səmərəli fəaliyyətlərinə görə Baş Prokurorluğun və ərazi prokurorluqlarının əməkdaşlarına təşəkkürlərini ifadə edib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin xalqa xidmət işini peşəkarlıqla yerinə yetirməsinin vacibliyini nəzərə çatdırıb.

Nazirliyin tədris müəssisələrində tədris və təlim prosesinin qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdiyini də qeyd edən general-polkovnik Vilayət Eyvazov ixtisaslı kadr hazırlığı, kursant və dinləyicilərdə analitik düşüncə tərzinin, müasir texnologiyalarla işləmək və ekstremal şəraitdə düzgün qərar çıxarmaq bacarığının formalaşdırılması üzrə görülən işlərə, bu istiqamətdə əldə olunmuş müsbət nəticələrə diqqət çəkib, möhkəm intizamın təməli sayılan döyüş, fiziki, mənəvi-psixoloji və sıra hazırlığının yüksəldiyini bildirib.

Kollegiyada müzakirə olunan məsələ üzrə qarşıda duran vəzifələrlə bağlı qərar qəbul edilib və növbəti iclasda onun icra vəziyyətinə dair hesabatların dinləniləcəyi qeyd olunub.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcəkdir.

# ONLAR SEVİNSİN DEYƏ...

**DİN Əlahiddə Çevik Polis Alayının II Patrul Bölüyünün təşkilatçılığı ilə Azərbaycan Uşaqları İctimai Birliyinin Uşaq Sığınacağı-Reinteqrasiya Mərkəzinin uşaqları üçün şənlik təşkil edilib.**



Şənlikdə iştirak edən DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov gələcəyimiz olan uşaqların hüquqlarının qorunmasının, müdafiəsinin, habelə təhlükəsiz mühitdə yaşamalarının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu diqqətə çatdırıb. Onların cəmiyyət üçün faydalı vətəndaş kimi böyümələri istiqamətində polisin, eləcə də digər hüquq mühafizə orqanlarının səylə çalışdığını, uşaqlara xüsusi dövlət qayğısının göstərildiyini də vurğulayıb.

ƏÇPA-nın II Patrul Bölüyünün komandiri, polis baş leytenantı Kənan Qasımov dinindən, irqindən, sosial durumundan asılı olmayaraq hər bir uşağın yaşamaq, inkişaf etmək hüququ olduğunu qeyd edib. Bölük komandiri şənliyin məhz onlar üçün düzənləndiyini söyləyərək uşaqlara xoş arzularını çatdırıb, ürək dolusu əylənmələrini diləyib.



Digər çıxışçılar - Binəqədi İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi Ziba Nəcəfova və Sığınacağın rəhbəri Kəmalə Ağazadə də polisin balacaların ən yaxın dostu olduğunu və hər zaman onların keşiyində dayandıqlarını bildiriblər.

Sonra sığınacağın 5 yaşlı sakini Qulu qonaqlar üçün "Əsgər marşı"nı oxuyub. Şənlik incəsənət nümayəndələrinin konsert proqramı ilə davam edib.

Şən klounun və sehirbazın çıxışları isə uşaqların sevincinə ayrı bir sevinc qatıb.

Sonda Patrul Bölüyünün şəxsi heyəti adından rəngli printer aparatı sığınacağa hədiyyə olunub.

Mərkəzin rəhbəri bu gözəl təşəbbüsə, çəkilən zəhmətə, həmçinin valideyn himayəsindən məhrum olan uşaqlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Polisinə minnətdarlığını ifadə edib.

*Teymur Əlizadə,*
*polis mayoru*



# Polis Akademiyasının əməkdaşı təlimə qatılıb



Budapeştdə Avropa İttifaqının Hüquq Mühafizə Təlimləri üzrə Agentliyi (CEPOL) tərəfindən "TOPCOP" layihəsi çərçivəsində həyata keçirilən "Qaranlıq şəbəkə təhqiqatları, rəqəmsal sübut və kriptovalyutalar" adlı təlimdə Azərbaycan nümayəndə heyətinin tərkibindən DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin və digər dövlət qurumlarının əməkdaşları ilə yanaşı DİN-in Polis Akademiyasının "Kriminalistika" kafedrasının müəllimi, polis baş leytenantı İsmayıl Əmirli iştirak edib. Tədbirə Moldovadan, Ukraynadan və Gürcüstandan da nümayəndələr qatılıb.

Təlim hüquq mühafizə sahəsində təlim ehtiyaclarının dəyərləndirilməsi metodologiyaları üzrə CEPOL standartları, "TOPCOP" layihəsinin 2021-2024-cü illər üzrə təlimlər kataloqu, CEPOL-un "LEED" elektron tədris platformasından istifadə, Avropaya qarşı mütəşəkkil və ağır cinayətlər və təhdidlərə qarşı sistematik fəaliyyət metodologiyası, proqramlaşdırma alətləri, "TOPCOP" Mübadilə Proqramı, ağır və mütəşəkkil cinayət təhdidlərinin qiymətləndirilməsi və mütəşəkkil cinayətkarlıqla mübarizədə Avropa İttifaqı qurumları, üzv dövlətləri və Şərq Tərəfdaşlığı ölkələrinin hüquq mühafizə orqanları arasında beynəlxalq əməkdaşlıq və informasiya mübadiləsinin təkmilləşdirilməsi kimi mövzuları əhatə edib.

Tədbir prosesində 4 təlimçi tərəfindən "Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası"nın əhəmiyyəti, xidmət provayderləri ilə qarşılıqlı əməkdaşlıq və ölkələrin beynəlxalq əməkdaşlığı, "Qaranlıq veb və kriptovalyuta"lardan istifadə edilməklə törədilən cinayətlərin sayının artması, bu cinayətlərin istintaqında istifadə olunan üsul və metodların əhəmiyyəti, "Açıq Mənbə Kəşfiyyatı" (OSİNT) qısa yollarından istifadə etməklə məlumatların götürülməsi və həmin məlumatların toplanılması, rəsmiləşdirilməsi və sübut qismində istifadə olunmasının əhəmiyyəti, "Qaranlıq veb"ə daxil olmanın üsulları, həmin vebdə cinayətkarların cinayətləri törətmə üsulları, istifadə olunan trend saytlar, həmin saytlarda araşdırmaların aparılması, "phishing" və "ransomware" təhdidlərinin mahiyyəti, onlarla qarşılaşdıqda hansı ilkin hərəkətlərin aparılması, habelə həmin zərərli proqram təminatlarını yayan şəxslərin tapılması, kibercinayətkarlığın qarşısının alınması və preventiv tədbirlər ilə bağlı mövzularda nəzəri və praktiki təlimlər keçirilib.

Polis baş leytenantı Əmirli İsmayıl "Avropa İttifaqı Siyasət Dövrəsi", "Kriminal Təhdidlərə qarşı Multidissiplinar Avropa Platforması" ("EMPACT") mövzusu və "Qaranlıq veb araşdırmaları, elektron sübut və kriptovalyutalar" mövzusu üzrə fəallıq göstərib və uğur sertifikatlarına layiq görülüb.

Təlim interaktiv və sual-cavab formatında davam etdirilib, bir sıra mövzular üzrə müzakirələr aparılıb.

# Həyat əhəmiyyətli xidmət

Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayının Hacıqabul rayonunda yerləşən Kür taqımının inzibati binasında aparılan əsaslı təmir işləri başa çatdırılaraq şəxsi heyətin istifadəsinə verilib.

Kür çayından Bakıya çəkilmiş su kəmərinin və nasosxanaların keşiyini çəkən taqımın əməkdaşlarının rahat xidməti üçün binada hər bir şərait yaradılıb. Burada ümummilli lider Heydər Əliyevin xatirə guşəsi, əməkdaşların xidməti və istirahət otaqları, mətbəx yüksək səviyyədə yenilənib, zəruri avadanlıq və inventarlar yerləşdirilib.







Alayın komandiri, polis polkovniki Sahib Vəliyev qəzetimizə bildirdi ki, əsaslı təmiri mayın sonlarında tamamlanmış binanın istifadəyə verilməsi həm Müstəqillik Gününə, həm də ulu öndərin yüz illiyinə bir töhfə olub.

Yeri gəlmişkən, 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar daxili işlər orqanlarının tərkib hissəsi kimi Alayda da xüsusi tədbirlər təşkil edilib.

Komandirin sözlərinə görə, şəxsi heyətin xidməti hazırlıq məşğələlərinin dərs planına "Ümummilli lider Heydər Əliyev müasir Azərbaycan Dövlətinin qurucusu və banisidir" mövzusu salınıb, əməkdaşlar ənənəvi olaraq keçirilən "Qan ver, yaşat!" və ağacəkmə aksiyalarında fəal iştirak edirlər. Bundan başqa, ulu öndərin yubileyinə həsr olunmuş "Sağlam bədəndə sağlam ruh" şüarı altında futbol yarışı keçirilib.

Qeyd edək ki, Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayı ölkəmizdə ən strateji obyektləri, əsasən su mənbələrini və su kəmərlərini qoruyur. Buraya "Azərsu" ASC-nin Bakı Şollar-1, Bakı Şollar-2, Oğuz-Qəbələ rayonlarında yerləşən artezian quyuları, Şabran rayonundakı Taxta-körpü su anbarı və su kəmərləri, Hacıqabul-Bakı Su Kəməri, habelə Bakı şəhərində yerləşən 26 içməli su anbarı və nasosxanalar daxildir.

Ümumilikdə 497 hektar ərazidə su anbarları və nasosxanalar, 781 hektar ərazidə artezian quyuları, 394 hektar ərazidə yerləşən su mənbəyi, 636 kilometr uzunluğunda su kəmərləri Alayın əməkdaşları tərəfindən mühafizə olunur.

*R.Mehtiyev*

# "II Beynəlxalq polis və cəza hüququ" adlı simpozium keçirilib



İstanbul şəhərində Türkiyə Respublikası Polis Akademiyasının təşkilatçılığı ilə "II Beynəlxalq polis və cəza hüququ" adlı simpoziumu keçirilib. Tədbiri giriş sözü ilə açan Türkiyə Respublikası Polis Akademiyasının professoru Ali Rza Töngür artıq ikinci ildir ki, təşkil olunan simpoziumun əsas məqsədinin Türkiyə və digər xarici ölkələrin hüquq sistemlərinin qarşılıqlı müqayisəsi, mövcud olan problemlərin və onların həlli üzrə təklif olunan əsas fikirlərin müzakirəsi, həmçinin hüquqşünasların bu sahədəki təcrübələrinin təkmilləşdirilməsi olduğunu vurğulayıb.

Daha sonra Türkiyə Respublikası Polis Akademiyasının rəisi, professor Yılmaz Çolak qonaqları salamlayaraq simpoziumu açıq elan edib.



İki gün davam edən simpoziumun bu ilki əsas mövzusu cinayətlərin araşdırılmasında polisin əsas səlahiyyətlərinə və qarşıya çıxan çətinliklərə həsr olunub. Proqram üzrə hər gün on iki çıxışçının nitqi dinlənilib.

Simpozium iştirakçıları şəxsi toxunulmazlıq hüququnun pozulduğu hallar və Alman cinayət qanunvericiliyində bu kimi hallara qarşı tətbiq edilən cəzalar, cinayətlərin araşdırmasında şəxsi məlumatların istifadə edilməsi qaydaları, süni intellektin polis əməkdaşlarının vəzifələrini həyata keçirilməsində istifadəsi və cinayətlərin araşdırmasında iştirakının mümkünlüyü, çirkli pulların yuyulması və son dövrlərdə Almaniya da daxil olmaqla Avropa ölkələrində artan qanunsuz pul köçürmələri cinayətlərinin qarşısının alınması, bu əməlləri törədənlərin yaxalanması təcrübəsi və bu sahədə polis əməkdaşlarının səlahiyyətlərinin artırılmasının vacibliyi, Almaniya qanunvericiliyində polis əməkdaşlarının əməliyyat tədbiri zamanı və ya hər hansı hüquqazidd hərəkətlərin qarşısını alarkən kənar şəxslər tərəfindən çəkiliş aparılmasının nüansları, çəkilişin qanunsuz olduğu və icazə verilmədiyi təqdirdə polisin etməli olduğu hərəkətlər haqqında və digər mövzularda çıxışlar ediblər.

Simpoziumda həmçinin polis əməkdaşlarının silah tətbiq etməsi və bu səlahiyyətlərin həyata keçirilməsi zamanı diqqət edilməli hallar haqqında məlumat verilib. DİN-in Polis Akademiyasını təmsil edən "Cinayət hüququ" kafedrasının müəllimi polis baş leytenantı Elnur Nəcəfov Azərbaycan Respublikasının polis haqqında qanununa uyğun olaraq polisin hansı hallarda silah tətbiq edə biləcəyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həmkarımız Türkiyə Respublikası Polis Akademiyasının rəisi, professor Yılmaz Çolak tərəfindən sertifikatla mükafatlandırılıb.

*"Polis"*

# Polis atanın həkim övladları...

Polis peşəsi ilə həkimlik ilk baxışdan bir-birindən uzaq görünür. Ancaq bu, qeyd etdiyimiz kimi, yalnız ilk baxışdan belədir. Cəmiyyətin sağlam olması üçün çalışan polislə insan sağlamlığını özünə məslək seçən həkimin işi mahiyyət etibarı ilə oxşar deyilmi?

Bu iki anlayış bir polis ailəsinin – Bərdə RPŞ-nin İstintaq bölməsinin rəisi, polis polkovnik-leytenantı Yusif Məhərrəmlinin ailəsində özünü elə parlaq, elə tamamlayıcı formada təcəssüm etdirir ki...



**Göyçə mahalının Qoşabulaq kəndi indi coğrafi olaraq bizdən uzaq düşsə də orada doğulan bölmə rəisinin ailəsinin, övladlarının timsalında Vətən naminə çalışanların, çarpışanların beşiyi olaraq qalır.** O kənddən başlayan uğur hekayəsi bu gün də davam edir.

Bu polis ailəsi, mübaliğəsiz-filansız, şölə saçan, cəmiyyətə fayda verən, işıq gələn tərəfi göstərən ailələrdəndir.

**Polis polkovnik-leytenantı Yusif Məhərrəmli** hələ 1994-cü ildə abutiriyent olaraq 554 balla Bakı Dövlət Universitetinin "Hüquq" fakültəsinə qəbul olarkən özünə və özündən sonrakılara cığır açıb. O, daxili işlər orqanlarında 20 ildən artıq xidməti dövründə sahə inspektoru, təhqiqatçı, müstəntiq, baş müstəntiq vəzifələrində çalışmaqla yanaşı, həm də bir ailə başçısı kimi övladlarına nümunə olub, açdığı cığırı da yola çevirib.

Uğur hekayəsini özü yazan övlad sahibi olmaq hər bir ailə başçısının köksünü iftixar hissi ilə doldurur, şübhəsiz. Onun soyunu, polis adını şərəflə daşıyan övladları İsa və Turani kimi.

**Bölmə rəisinin böyük oğlu İsa iki il öncə 680 bal toplayaraq Tibb Universitetinin "Tibb" fakültəsinə daxi olub. Prezident təqaüdçüsüdür, ikinci kursu da əla qiymətlərlə başa vurub. Bu ilki qəbul imtahanında 684 bal toplayan qardaşı Turani də eyni ixtisası seçib. Nəticələrinə görə onunda da Prezident təqaüdçüsü olacağı gözlənilir.**

Sözümüzün əvvəlinə qayıdırıq-bu ailə cəmiyyətin və insan sağlamlığının keşiyini çəkənlərin ailəsidir.

*Rəşad Mehtiyev*

# Bir yarış, iki qələbə

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 15-18 iyun tarixlərində Sərhədçi Olimpiya İdman Kompleksində Grappling və Grappling Gİ idman növü üzrə respublika çempionatı keçirilib. Mindən çox idmançının gücünü sınadığı yarışda Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşı (təlimatçı), polis baş serjantı Murad Gözəlov da iştirak edib. 92 kiloqram çəki dərəcəsində yarışan polis əməkdaşı, iki nominasiya üzrə fərqlənib. Belə ki, Grappling Gİ üzrə bütün rəqiblərinə qalib gələrək 1-ci yerin sahibi olan M.Gözəlov, Grappling üzrə isə 2-ci yerə layiq görülüb.

Gənclər və İdman Nazirliyi tərəfindən müvafiq diplomlarla mükafatlandırılan polis baş serjantı M.Gözəlovu daha sonra Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin rəisi, polis polkovnik-leytenantı Mövlud Mirəliyev qəbul edib. Qazandığı qələbə münasibətilə onu təbrik edən cəmiyyətin rəisi idman karyerasında uğurlar və daha böyük nailiyyətlər arzulayıb.



Azərbaycan Respublikasının idman ustası M.Gözəlovun bu ilk qalibiyyəti deyil. O, dəfələrlə dünya, Avropa və respublika çempionatlarında iştirak edərək müxtəlif diplom və medallarla təltif olunub.

*Nizam Həmidov, polis kapitanı*

# BİZƏ YAZIRLAR...




Vətəndaşların polislə ilk tanışlığı, adətən polis bölmələrindən başlayır. Elə ilk təəssüratda buradan formalaşır.

Son dövrlərdə Daxili İşlər Nazirliyinə ünvanlanan təşəkkür məktubları əsasən bölmələrin fəaliyyəti ilə birbaşa bağlı olur. Biz də elə fəaliyyəti məmnunluq doğuran Nərimanov RPİ-nin 16-cı Polis Bölməsi ilə bağlı təşəkkür məktublarını diqqətinizə çatdırırıq.

Sosial şəbəkə izləyicisi **Əmrah Bayramov** yazır: "Nərimanov rayonu ərazisində yol-nəqliyyat hadisəsi törətmişdim. Hadisəylə bağlı Narimanov RPİ-də qəbulda oldum. Vətəndaşlara göstərilən səmimi münasibət məndə qürur hissi oyatdı. Məsələ ilə bağlı lazımi tədbirlər görüldü".

Digər təşəkkür məktubu **Nurtac Şabanova** tərəfindən yazılıb. O, onu narahat edən şəxs barəsində etdiyi müraciətə dərhal reaksiya verilərək həmin şəxsin tez bir zamanda müəyyən olunmasına və probleminin həllində göstərilən köməkliyə görə Bölmənin şəxsi heyətinə minnətdarlığını ifadə edir.

Bakı şəhər sakini **Zaur Həsənov** isə ünvanladığı təşəkkür məktubunda mobil telefonunun oğurlanması ilə əlaqədar etdiyi müraciətə obyektiv baxılmasına və səmimi qəbula görə minnətdarlığını bildirir.

Sosial şəbəkə istifadəçisi **Onur İskəndərov** DİN-ə ünvanladığı məktubunda qeyd edir ki, içərisində şəxsi əşyalarının olduğu çantanı taksidə unudub. Bu barədə etdiyi müraciətə həssas yanaşılmasına və tez bir zamanda çantasının tapılaraq qaytarılmasında göstərilən köməkliyə görə Nərimanov RPİ-nin 16-cı Polis Bölməsinin şəxsi heyətinə təşəkkür edir.

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# Beynəlxalq idman uğurlarımız

Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında DİN İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədovun yetirməsi Fərid Ağamoğlanov kikboksinqin full-contact versiyasında, -63.5 kiloqram çəki dərəcəsində Milli komandamızın ümumi hesabına qızıl medal qazandırıb.

Qeyd edək ki, Azərbaycan idmançıları Polşada 11 medal qazanıb. Bunlardan 3-ü qızıl, 2-si gümüş, 6-sı bürünc əyarlıdır.

❖❖❖

Ankarada taekvando üzrə yeniyetmə və gənclər arasında "Turkish Open" adlı beynəlxalq turnir keçirilib.

Milli komandamızın 37 idmançı ilə gücünü sınadığı turnirə müxtəlif ölkələrdən 1400 idmançı qatılıb.

DİN İdman Cəmiyyətinin yetirməsi Tamerlan Yaqubov yeniyetmələr arasında 4 döyüş keçirərək turnirin qalibi olub.

Yarışların nəticələrinə görə isə milli komandamız ümumilikdə 5 qızıl, 1 gümüş, 6 bürünc medal qazanıb.

Qeyd edək ki, idmançımızı bu yarışa DİN İdman Cəmiyyətinin müəllimi Səbuhi Zülfüqarov hazırlayıb.

❖❖❖

Qazaxıstanın Almatı şəhərində kombat ciu-citsu üzrə VI Asiya çempionatı keçirilib. Çempionatda 15 ölkədən 425 idmançı iştirak edib.

DİN İdman Cəmiyyətinin əlbəyaxa döyüş üzrə baş məşqçi-müəllimi, Əməkdar məşqçi Rəsul Məmmədov çempionata



baş hakim kimi dəvət alıb və onun rəhbərliyi altında həmin yarışın hakim briqadaları idarə olunub.

Qeyd edək ki, beynəlxalq dərəcəli hakim R.Məmmədov Beynəlxalq Kombat Ciu-Citsu Federasiyasının Hakimlər komitəsinin sədridir.

*Ruslan Vəliyev*

**Bakı Şəhər Baş Polis İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Sumqayıt şəhər sakini Ü.Əhmədovdan 1 kiloqram tiryək, 80 ədəd ekstazi və 400 ədəd metadon həbi götürülüb. Davam etdirilən tədbirlərlə onun Bakı şəhərində kirayədə yaşadığı mənzilə baxış zamanı oradan əlavə 71 qramdan artıq metamfetamin, 129 qrama yaxın marixuana, 15 ədəd metadon həbi və 2 ədəd elektron tərəzi aşkar edilərək götürülüb.

◆◆◆

**Sumqayıt Şəhər Polis Şöbəsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini S.Vahidovdan 2,3 kiloqram heroin aşkar edilərək götürülüb.

◆◆◆




İyulun 3-də Nəsimi rayonu A.Mustafayev küçəsindəki mağazaların birində Bakı şəhər sakini olan bir nəfərin içərisində 2000 manat, bank kartları və 2 ədəd mobil telefon olan cüzdanının oğurlanması barədə polisə məlumat daxil olub. **Nəsimi RPİ 20-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş R.Abbasov müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Gəncə Şəhər Baş Polis İdarəsinin 1-ci Polis Şöbəsi** əməkdaşlarının əldə olunmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini əvvəllər məhkum olunmuş E.Əliyevdən "Makarov" markalı tapança, patron darağı və 6 ədəd patron aşkar olunaraq götürülüb.

◆◆◆

**Yasamal RPİ 26-cı Polis Bölməsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş C.Allahverdiyevdən nömrəsi silinmiş "Makarov" markalı tapança, 1 ədəd patron darağı və 5 ədəd patron götürülüb. Araşdırma aparılır.

# İDMAN XRONİKASI

## Yarışın qalibi çevik polislər oldu



DİN İdman Cəmiyyətində ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş daxili işlər orqanları əməkdaşları arasında futzal üzrə birincilik yarışı keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, respublikanın ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Yarışa DİN-in Daxili Qoşunlarının Baş İdarəsinin, Baş Dövlət Yol Polisi İdarəsinin, Nəqliyyatda Baş Polis İdarəsinin, Baş Mühafizə İdarəsinin, Bakı Şəhər Baş Polis İdarəsinin, Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taborunun, Əlahiddə Çevik Polis Alayı və Sumqayıt Şəhər Polis İdarəsinin komandaları qatılıb.

Bakı Şəhər Baş Polis İdarəsi Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taborunu 7 : 5 hesabı ilə məğlub edərək bürünc medal qazanıb.

Final qarşılaşmasında Əlahiddə Çevik Polis Alayı - Baş Mühafizə İdarəsi ilə üz-üzə gəlib. Çeviklər 7 : 4 hesabı ilə qalib gələrək birinci olub.

Nəticələrə görə 16 qolla ƏÇPA-nın əməkdaşı, XTB taqım komandiri, polis mayoru Rafik Salayev yarışın "ən yaxşı bombardiri", "ən yaxşı qapıçı"sı isə 11-ci patrul bölüyünün polis baş serjantı Vüsal Məmmədov seçilib.

Sonda fərqlənmiş komandalara DİN İdman Cəmiyyətinin rəisi, polis polkovnik-leytenantı Mövlud Mirəliyev, Güləş federasiyasının prezidenti, Əməkdar idman xadimi, Şöhrət ordenli Elçin Cəfərov, Olimpiya və dünya çempionu Fərid Mansırov, Olimpiya mükafatçısı və dünya çempionu Rövşəm Bayramov, Olimpiya mükafatçısı Fuad Aslanov tərəfindən qiymətli hədiyyələr, diplomlar və kubok təqdim edilib.

Qeyd edək ki, yarışın baş hakimləri DİN İdman Cəmiyyətinin İdmanın təşkili şöbəsinin rəisi, polis polkovniki Munir Orucov və baş inspektor, polis polkovnik-leytenantı Aydın Həşimov olub.

*Ruslan Vəliyev, polis baş leytenantı*

## Daha bir turnir yekunlaşıb

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlərin davamı olaraq, habelə daxili işlər orqanları əməkdaşlarının silahsız özünümüdafiə və əlbəyaxa döyüş bacarıqlarının təkmilləşdirilməsi məqsədilə daha bir yarış Bərdə Rayon Polis Şöbəsinində şəxsi heyəti arasında keçirilib.

İkimərhələli turnirdə iştirak edən 125 idmançıdan 41-i ikinci tura vəsiqə qazanıb. Ən güclülərin mübarizəsində 5 çəki kateqoriyası üzrə qaliblərə münsiflər tərəfindən medal, diplom və qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, yarışa İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis mayoru Elşən İbişov rəhbərlik edib.

*Ə.Teymur*

## Futzal yarışı keçirilib

Masallı Rayon Polis Şöbəsinin əməkdaşları arasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş futzal yarışı təşkil olunub.

Əvvəlcə ümummilli liderin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi yad edilib.

Masallı RPŞ-nin rəisi, polis polkovniki Azay Ağayev xalqımızın sülh və əmin-amanlıq, sabitlik şəraitində yaşamasında, eləcə də ölkəmizdə idmanın inkişafı və gənc nəslin sağlam ruhda yetişməsində ulu öndərin müstəsna xidmətlərindən danışıb.

Sonra yarışa start verilib və şöbə əməkdaşlarından təşkil olunmuş komandalar qalib adı uğrunda yarışıblar. Futzal yarışının qalibi şöbənin "Digər xidmətlər" komandası olub.

*Məhəmməd Rzayev, polis kapitanı*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10375
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik